# Azərbaycan və Gürcüstan arasında ümumi, ali təhsil və elm sahələrində yeni əməkdaşlıq perspektivləri

# Elm və təhsil naziri Gürcüstanda səfərdə olub

## Muzey ilə tanışlıq, Qazax Müəllimlər Seminariyasının tələbələri ilə görüş




Mayın 18-də Gürcüstana səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev ADA Universitetinin rektoru Hafiz Paşayevlə birlikdə Tbilisi şəhərindəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinə baş çəkib.

Ziyarət zamanı M.F.Axundzadənin həyat və yaradıcılığı, muzeyin fəaliyyəti, burada saxlanılan eksponatlar barədə məlumatlarla tanışlıq olub.

Elm və təhsil naziri səfər zamanı Qazax Müəllimlər Seminariyasına yeni qəbul olunan tələbələrlə də görüşüb.

## Emin Əmrullayev Gürcüstanın Baş naziri ilə görüşüb



Mayın 19-da Gürcüstanda səfərdə olan elm və təhsil naziri Emin Əmrullayev bu ölkənin Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.

Görüşdə Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari, ADA Universitetinin rektoru Hafiz Paşayev və Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev iştirak ediblər.

Görüş zamanı Azərbaycanda gürcü dilində, Gürcüstanda isə Azərbaycan dilində tədris aparılan məktəblərin fəaliyyəti yüksək qiymətləndirilib, ümumi, ali təhsil və elm sahələrində əməkdaşlığın perspektivləri vurğulanıb.

## Nazir Tbilisi Dövlət Universitetində Heydər Əliyev adına auditoriyanın açılış mərasimində iştirak edib




Mayın 19-da Gürcüstana səfəri çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetində Heydər Əliyev adına auditoriyanın açılış mərasimində iştirak edib.

Tədbirdə çıxış edən elm və təhsil naziri Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə bir çox sahələrdə, o cümlədən təhsil sahəsində həyata keçirilmiş islahatlar və onların nəticələri barədə tədbir iştirakçılarına məlumat verib. Emin Əmrullayev Ulu Öndərin azərbaycanlı gənclərin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına göstərdiyi dəstəyi xüsusilə vurğulayıb və auditoriyanın açılışına verdiyi dəstəyə görə Tbilisi Dövlət Universitetinə təşəkkürünü bildirib.



Daha sonra elm və təhsil naziri Emin Əmrullayev ilə Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari Tbilisi şəhərində yerləşən tədris Azərbaycan dilində aparılan M.F.Axundov adına 73 nömrəli məktəbi ziyarət edib və məktəbdə keçirilən “Son zəng” tədbirində iştirak edib.

Səfər çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev Gürcüstanın Texniki Universitetini ziyarət edib, ali təhsil müəssisəsinin rektoru David Qurgenidze ilə görüşüb.

## ADA Universitetinin rektoru GTU-nun fəxri doktoru adına layiq görülüb



Mayın 19-da ADA Universitetinin rektoru Hafiz Paşayev Gürcüstan Texniki Universitetinin (GTU) fəxri doktoru adına layiq görülüb.

GTU-nun rektoru David Qurqenidze bildirib ki, universitetin Elmi Şurası ADA Universitetinin rektoru Hafiz Paşayevin fəxri doktor adına layiq görülməsi barədə qərar qəbul edib. Rektor GTU-nun fəxri doktoru diplomunu və fəxri döş nişanını Hafiz Paşayevə təqdim edib.

Hafiz Paşayev öz növbəsində GTU-nun rektoru və Elmi Şurasına minnətdarlığını bildirib.